**Azərbaycan zəngin mədəniyyəti, elmi, mənəvi irsi ilə əsrlər boyu Şərq və Qərb arasında körpü rolunu oynayıb. Bu xalqın yetirdiyi görkəmli şəxsiyyətlərdən biri də XVIII əsrin sonu, XIX əsrin əvvəllərində yaşamış məşhur səyyah, coğrafiyaşünas və mütəfəkkir Hacı Zeynalabdin Şirvani olmuşdur.**

# Elm və təlimin vəhdətində "Divan" sahibi alim, səyyah, şair



1780-ci ilin 16 avqustunda Azərbaycanın elm və mədəniyyət mərkəzlərindən biri olan Şamaxı şəhərində anadan olan Zeynalabdin uşaqlıqdan fərqli düşüncə tərzi, elmə marağı və geniş təxəyyülü ilə seçilib. Beş yaşında ikən ailəsi ilə birlikdə Kərbəlaya köçüb. Atası axund İskəndər mədrəsədə dərs deyir, gənc Zeynalabdin isə ilk təhsilini dini və mədəni mühitdə alıb. Onun elmə olan marağı erkən yaşlarında özünü büruzə verir, təkcə dini biliklərlə kifayətlənmir, dünyəvi elmlərə də yönəlib. 1796-cı ildə gənc Zeynalabdin Bağdad şəhərinə üz tutub. Dövrün ən mühüm elmi və mədəni mərkəzlərindən olan Bağdad da qarşısına geniş imkanlar açılıb. Fəlsəfə, tibb, astronomiya, riyaziyyat və müxtəlif dillər üzrə dərin biliklər qazanan Zeynalabdin kitabxanalarda səyahətnamələr oxuyub, alimlərlə debatlarda iştirak edib. Səyyahlardan eşitdiyi əhvalatlar, zəvvarların bəhs etdiyi mistik şəhərlər onda dünyanı tanımaq həvəsi oyadıb.

Hacı Zeynalabdin Şirvani ömrünün 37 ilini səyahətdə keçirir. Bu, elmi ekspedisiya, mədəniyyət araşdırması, mənəvi axtarış idi. O, 70 min kilometrlik məsafə qət edərək Hind okeanı sahillərindən Pamir dağlarına, Sudan cəngəlliklərindən Hindistanın tropik meşələrinə qədər səfərlər həyata keçirir. Kiçik Asiya, Orta Asiya, İran yaylası, Ərəbistan səhraları, Afrika qitəsinin müxtəlif bölgələri onun öyrəndiyi coğrafiyalardan sadəcə bir neçəsidir. Səfərlər zamanı o, təkcə təbiət və coğrafiya deyil, həm də mədəniyyətlər, dillər, adət-ənənələr, dini inanclar və sosial sistemlər haqqında qiymətli müşahidələr aparır. Onun müşahidələri isə elmi dəyərə malik mənbələr olur. Zeynalabdin Şirvani səyahətlərini qələmə alaraq gələcək nəsillərə qiymətli əsərlər miras qoydu. Onun "Bustanus-səyahət" və "Riyazus-səyahət" əsərləri bu sahədə klassik nümunələr sayılır. Bu əsərlərdə coğrafi təsvirlər, etnoqrafik qeydlər, tarixi faktlar və şəxsi müşahidələr ustalıqla bir araya gətirilmişdir. Zeynalabdin gəzdiyi ölkələrin mənəvi ruhunu, cəmiyyətin nəbzini, insan təbiətini yazıya köçürür.

Hacı Zeynalabdin Şirvani öz səyahətlərini ardıcıllıqla hissələrə bölməsə də, onun səfərləri əsasında həyatının coğrafi xəritəsini qurmaq mümkündür. İlk səfərində Bağdaddan başlayaraq İraqi-Əcəm, Gilan, Şirvan, Muğan, Talış, Cənubi Azərbaycan, Xorasan, Herat, Zabul, Pəncab, Hind okeanı adaları, Dəkən, Benqal, Qucarat, Kəşmir, Tatarıstan, Turan və yenidən İrana qədər uzanan böyük bir coğrafiyanı dolaşır. İkinci səfəri isə Şirazdan başlayaraq Darab, Bəndər Abbas, Hədrəmaut, Yəmən, Həbəşistan, Sudan, Ciddə, Hicaz, Mədinə, Məkkə, Nil vadisi, Misir, Şam-Rum, Diyarbəkir, Qaraman və Aydın şəhərlərini əhatə edir. Şirvani burada səyyahdan daha çox zamanın şahidi olur, topladığı bilikləri təhlil edir, sənədləşdirirdi. 1802-ci ildən başlayaraq 8 il boyunca Hindistanda qalan Hacı Zeynalabdin bu qədim ölkənin iqtisadiyyatını, musiqisini, adət-ənənələrini, siyasi vəziyyətini, etnik müxtəlifliyini, hətta ingilis müstəmləkəçiliyinin təsirlərini dərindən müşahidə edir. Hacı Zeynalabdin Hindistanda olduğu müddətdə bu qədim sivilizasiyanın bütün qatlarını təbəqə-təbəqə tədqiq etmiş, etnoqrafik, dini-fəlsəfi, iqtisadi və memarlıq xüsusiyyətlərini araşdırmışdır. Onun müşahidələri sosial və tarixi şərhlərlə də zənginləşir. Məsələn, o, Kəşmir əhalisinin türk mənşəyi, burada türk və hind etnosları arasında gedən assimilyasiya prosesləri, ingilis müstəmləkəçiliyinin Kəlküttə və digər bölgələrdəki təsiri, Dehlinin ziyalı mühitində türk-müsəlman təbəqəsinin rolunu xüsusi vurğulayıb. Ən diqqətçəkən məqamlardan biri onun Kəşmir və Kabul haqqında yazdığı fikirlərdir. Səyyah bildirir ki, o torpaqların Hindistana aid olub-olmaması elmi müzakirə mövzusudur. Bu isə bu günə qədər Hindistan-Pakistan münaqişəsinin tarixi köklərinin yüz illər əvvələ qədər uzandığını sübut edir və Şirvaninin fikirlərinin müasirliklə səsləşdiyini ortaya qoyur. Şirvaninin sevdiyi şəhərlərdən biri Dehli idi. O, bu qədim şəhərdə 11 ay yaşamış, burada II Şah Aləmlə bir neçə dəfə görüşmüş, onunla mədəniyyət, siyasət və din haqqında müzakirələr aparmışdı. "Bustanus-səyahə" adlı əsərində bu görüşləri təfərrüatı ilə qeyd edən alim Dehlinin keçmişinə, şəhərin müxtəlif mərhələlərdəki inkişafına və dağıntılarına diqqət çəkir: "Dehli Hindistanın qədim şəhərlərindən biridir. Burada Dehli adlı rac yaşayıb və şəhəri abadlaşdırıb, öz adını şəhərə qoyub. Ondan sonra da Dehli böyük racların hökumət mərkəzi olub. Fəqət müharibələr nəticəsində bu şəhər dəfələrlə xarabalığa çevrilib. Cahangirin oğlu Şah Cahan şəhəri bərpa etdirərək oranı öz adı ilə adlandırıb. Odur ki, bəziləri Dehliyə indi də Şah Cahan deyir". Zeynalabdin Şirvani Tac-Mahal haqqında da tədqiqatlar aparır. O, bu memarlıq incisinin tarixi əhəmiyyətini, memarlıq tərzini, siyasi simvolunu da açıqlayır. Bildirib ki, Tac-Mahal XVII əsrdə Şah Cahanın xanımı Mümtaz üçün tikilmiş, Anadolu mənşəli memar İsa bəy tərəfindən inşa edilmişdir.

Üçüncü səyahətində Atlantik okeanına qədər qədər Şirvani bu dəfə Bərə-Əhzər adaları, Rumeli, Anadolu, Azərbaycan, Tehran, Həmədan, İsfahan, Kirman, Şiraz, Bağdad istiqamətində hərəkət edir. Bu marşrutla o, yalnız Şərqi deyil, Qərb sivilizasiyasını da anlamaq istəyirdi. Zeynalabdin Şirvani həm də mistik şəxsiyyət, nemətullahi təriqətinin şeyxlərindən, elm və dinin vəhdətində kamillik axtaran bir sufi idi. Təsəvvüfün dərin qatlarına enmiş, insanın batini aləminə səyahət etmiş bir arif kimi onun səyahətlərinə mənəvi dəyər qatırdı. Zeynalabdin Şirvani yaşadığı dövr üçün nadir şəxsiyyət idi ki, elm, təbiət və mənəviyyat arasında körpü qurmuşdu. O, sübut edirdi ki, elm yolda, gördüklərində, hiss etdiklərində, insanlarla ünsiyyətdə formalaşır.

1805-ci ildə Hacı Zeynalabdin Şirvani ilə görüşən ingilis tədqiqatçı Mark Vilson onun əsərlərinə və səyahət yoluna xüsusi maraq göstərərək bu azərbaycanlı səyyahın bəşəri miqyasda bir şəxsiyyət olduğunu dərk etmişdi. Vilsonun Şirvaniyə olan diqqəti təsadüfi deyildi: Şirvani düşünür, təhlil edir və nəticə çıxarırdı. Bu da onu tipik səyyahlardan fərqləndirirdi. O, həm də bir tədqiqatçı, filosof, tarixçi, etnoqraf və şair idi.

Hacı Zeynalabdin Şirvani geniş müşahidələrini üç möhtəşəm əsərdə cəmləyib: "Riyazus-səyahət" (1822), "Hədaiqus-səyahət" (1827), "Bustanus-səyahət" (1833). Bu əsərlərdə səyahət etdiyi onlarla ölkənin coğrafiyası, tarixi, arxitekturası, etnoqrafiyası, ədəbiyyatı, hətta iqtisadi fəaliyyəti haqqında dəyərli məlumatlar verir. Şərqin klassik alimləri kimi yeri yeddi iqlim qurşağına bölərək, iqlimin insanların həyat tərzinə təsirini analiz edir. Eyni zamanda, əsərlərində sosial təbəqələşmə, qadınların cəmiyyətdəki yeri, təhsil və maarifçilik, ətraf mühitlə insan münasibətləri kimi dövrünün qabaqlayıcı elmi təhlillərinə də rast gəlinir. Şirvaninin elmi nüfuzu o qədər güclü idi ki, getdiyi ölkələrdə onu böyük bir alim kimi qarşılayırdılar. Rəvayətə görə, Hindistan vilayətlərindən birində ona fövqəladə ehtiramla yanaşan bir hakim belə demişdi: "Mən sizə layiq olduğunuz hörmətin yalnız yüzdə birini göstərə bilmişəm. Siz bir çox səbəbdən hörmətə layiqsiniz: birincisi, siz insanpərvərsiniz, insanlarsa bir-birinə hörmət etməlidir; ikincisi, siz buraya bizim ölkəmizin qonağı olaraq gəlibsiniz, qonağa hörmət edərlər; üçüncüsü, siz alimsiniz, alimə hörmət etmək hər kəsin borcudur; dördüncüsü, siz müdrik və çox bilən bir adamsınız, acizlərə, kasıblara kömək edirsiniz, belə adamlarsa hər cür hörmətə izzətə layiqdir... Bax, bütün bunlara görə mən sizi qəlbən sevir və sizə hörmət bəsləyirəm."

Hacı Zeynalabdin Şirvani, həmçinin Misir hakimi İbrahim bəylə, İran şahı Fətəli xan Qacarla, Osmanlı sultanı Mahmudla və daha neçə hökmdarla görüşmüş, saray müzakirələrində iştirak etmişdi. Amma o, hər zaman rahat həyatdan imtina etmiş, elm və həqiqət axtarışını ömür yoluna çevirmişdi.

H.Z.Şirvani özünü həm də qələm sahibi, söz ustadı kimi tanıtmışdır. O, "Təmkin" təxəllüsü ilə qələmə aldığı şeirlərində dövrünün fəlsəfi-estetik baxışlarını ifadə etmiş, bədii irsini əsasən səyahətnamələrində təqdim etmişdir. Onun şeirləri Tehran Mərkəzi Kitabxanasında saxlanılan "Divan" əlyazmasında qorunur. Bu divan onun poetik dünyasının dərinliklərinə işıq salmaq baxımından böyük əhəmiyyətə malikdir. Zeynalabdin Şirvaninin irsi, əlyazmaları bu gün dünyanın bir neçə tanınmış elm mərkəzlərində - Britaniya Muzeyində, Paris Milli Kitabxanasında, Sankt-Peterburq Elmlər Akademiyasında və İranda qorunur. Şirvaninin əsərləri bir sıra məşhur tədqiqatçıların diqqətini çəkmişdir. Abbasqulu ağa Bakıxanov, Məmmədəli Tərbiyət, Əsgər Həmid Rəbbani, B.Dorn, N.Xanıkov, E.Braun, S.Stom, E.Bloşen kimi alimlər onun irsini öyrənərək, elmi dövriyyəyə çıxarmışlar.

Abbasqulu Ağa Bakıxanov əsərlərində H.Z.Şirvaninin səyahətləri, alimlərlə görüşləri, topladığı məlumatlar və dünyagörüşü barədə təfsilatlı məlumatlar verir. Onun bu qeydləri həm fars, həm də rus dillərində yazıldığı üçün daha geniş auditoriyaya yol tapmış, Şirvani haqqında dünya miqyasında obyektiv elmi təsəvvür formalaşdırmışdır. Böyük Britaniyanın tanınmış ərəb və fars əlyazmaları kataloqunu tərtib edən Ş.Rio Zeynalabdin Şirvanini "görkəmli səyyah" və "böyük təcrübəyə malik alim" olaraq xarakterizə edir. Onun Mərakeşdən Benqal körfəzinə, Rumelidən Yəmənə qədər uzanan səyahətləri Şərq sivilizasiyası ilə Qərb elmi arasında körpü rolu oynayıb. H.Z.Şirvani səfərlərində hər bir bölgənin elmi, mədəni və fəlsəfi mühitini öyrənmiş, şəxsi müşahidələri və təhlilləri ilə zənginləşdirmişdir.

Zeynalabdin Şirvani 1820-ci ildə Şiraz şəhərində ailə həyatı qurmuşdur. Onun Cəlaləddin Məhəmməd və Hüsaməddin Əli adında iki oğlu olmuşdur. Böyük oğlu kiçik yaşlarında vəfat etmiş, kiçik oğlu isə atasının yolu ilə gedərək bir sıra Şərq ölkələrinə - İraq, İran, Hindistana səyahətlər etmişdir. H.Z.Şirvani ömrünün son illərində həyatının mənəvi zirvəsi hesab olunan həcc ziyarətinə getmiş və 1838-ci ildə səfər zamanı Midde şəhəri yaxınlığında xəstələnərək dünyasını dəyişmişdir. O, həmin ərazidə dəfn edilmişdir.

Azərbaycan elmi fikrində Hacı Zeynalabdin Şirvaniyə dair qiymətli mənbələrdən biri professor F.Qasımzadənin əsərləridir. O, H.Z.Şirvanini həm coğrafiyaşünas alim, həm də şair kimi təqdim edib və xüsusilə onun "Vəhdəti-vücud" fəlsəfəsi ilə bağlı düşüncələrini vurğulayıb. Tanınmış ədəbiyyatşünas Firidun bəy Köçərli də öz tədqiqatlarında H.Z.Şirvani haqqında dəyərli məlumatlara yer verib. Ənvər Cəfərzadənin "Xoş gördük, səyyah!" adlı tarixi romanı isə bütövlükdə Hacı Zeynalabdin Şirvaninin həyat və irsinə həsr olunmuşdur. Alimin coğrafiyaşünas və səyyah kimi tanınmasında Azərbaycanın görkəmli coğrafiyaşünası, professor N.Kərəmovun fikirləri və xüsusilə H.Z.Şirvaninin dünya səfərlərinə əsaslanaraq tərtib etdiyi xəritə-sxemlər böyük əhəmiyyət daşıyır. Eyni zamanda, professor Q.K.Gülün məqalələrində H.Z.Şirvaninin Xəzər dənizi barədə düşüncələrinə geniş yer ayrılmış, onun bu su hövzəsini həm göl, həm də dəniz kimi qiymətləndirməsi xüsusi maraq doğurmuşdur. Bu yanaşmalar Azərbaycan elmi mühitində Xəzər dənizinin tarixi coğrafiyası ilə bağlı biliklərin formalaşmasına əhəmiyyətli töhfə vermişdir.

Zeynalabdin Şirvani dövrün ruhunu daşıyan, fəlsəfəsini formalaşdıran, müxtəlif elmləri bir araya gətirən ensiklopedik şəxsiyyət olmuşdur. Bu gün dünya coğrafiya elminin klassik simalarından sayılan Hacı Zeynalabdin Şirvani doğma Azərbaycan üçün fəxr ediləcək bir şəxsiyyət, həm də tədqiq olunmalı, yenidən kəşf edilməli zəngin bir elmi və mədəni irsdir.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**

Respublika.- 2025.- 16 avqust (№ 171).- S.10.